*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    28 avqust 2019-cu il  № 66 (2383)    Qiymәti 30 qәpik


## Hava hücumundan müdafiə bölmələri döyüş atışları icra edib



*Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi nüfuz və güc sahibi olmaqla yanaşı, hərbi müstəvidə də əsas söz sahibidir. Tək silahlanma sahəsində deyil, mənəvi-psixoloji hazırlıq cəhətdən, peşəkarlıq və təminat-təchizat baxımından da, ordumuz güclülər sırasındadır. Bu gün silahlanma sahəsində qarşıda duran əsas vəzifələrdən biri Azərbaycan Ordusunun daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir. Son illər keçirilən möhtəşəm hərbi paradlar da Azərbaycan Ordusunun güc və qüdrətini, eyni zamanda modernləşdiyini nümayiş etdirdi. Bu paradlar həm də xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının təntənəsi və gözəl nümunəsidir. Çünki Azərbaycan Ordusunun qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının davam etdirilməsi deməkdir.*

Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Bu gün Azərbaycan Ordusu durmadan döyüş qabiliyyətini artırır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Bütün bu amillər bizim hərbi gücümüzün artmasının əsas göstəricisidir.

Hazırda respublikamızda ordu quruculuğu ən prioritet məsələlərdən biridir. Təbii ki, müharibə şəraitində yaşayan ölkə üçün bu, xüsusi əhəmiyyət kəsb edir. Respublikamızda dünyanın ən nizami ordularından biri formalaşdırılıb. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artıb.

(Ardı 2-ci səhifədə)



"Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinə start verilib

4-cü səhifədə



Türk dünyasının qəhrəmanlıq salnaməsi

5-ci səhifədə



Alabinoda qazanılmış uğurlar

6-cı səhifədə



"Xalq ordusuna inanır, ordu xalqına güvənir"

7-ci səhifədə

# Müdafiə Nazirliyi FHN-in əməkdaşlarını təltif edib

*Avqustun 26-da Fövqəladə Hallar Nazirliyində (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin bir qrup əməkdaşının təltifetmə mərasimi keçirilib.*



FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov iştirak ediblər.

Qeyd edək ki, FHN Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) hərbi qulluqçuları iyulun 24-də qəzaya uğramış Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinə məxsus "MiQ-29" təyyarəsinin pilotunun nəşinin və təyyarənin qalıqlarının axtarış-xilasetmə əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsi işində yüksək peşəkarlıq, bacarıq və fədakarlıq göstərərək fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanla təltif edilib, qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Mərasimdə çıxış edən Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev "MiQ-29" hərbi təyyarəsinin pilotunun həlak olmasının təkcə Müdafiə Nazirliyi deyil, dövlət və xalq üçün böyük itki olduğunu vurğulayıb. Bildirib ki, FHN-in əməkdaşları qəza axtarış-xilasetmə əməliyyatlarında iştirak edərək vəzifə borclarını yerinə yetiriblər. Nazir müavini XRXX-nin əməliyyatlarda fərqlənmiş hərbi qulluqçuların Müdafiə Nazirliyi tərəfindən təltif edilməsini böyük diqqət adlandırıb və buna görə minnətdarlığını bildirib.



Sonra FHN XRXX-nin 11 əməkdaşına fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Fövqəladə Hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev də Müdafiə Nazirliyinin xüsusi mükafatı ilə təltif olunub.

## Düşənbədə MDB ölkələri Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası keçirilib

Avqustun 23-də Düşənbədə MDB ölkələri Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Ermənistan nümayəndələri iştirak ediblər.

İclası açan Tacikistanın Müdafiə naziri Şirəli Mirzo müasir dünyadakı təhlükələrdən narahat olduğunu bildirib, gələcəkdə hərbi və hərbi texniki əməkdaşlığın gücləndirilməsinə diqqəti artırmağın vacibliyini vurğulayıb.

Tədbirdə MDB ölkələrinin silahlı qüvvələrinin koordinasiyası ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edilib, təşkilata üzv dövlətlərin 2025-ci il üçün hərbi münasibətlərinin Konsepsiyasının həyata keçirilməsi yolları diqqət mərkəzində olub.

Həmçinin birgə təlimlər, mina əleyhinə əməliyyatlar, kimyəvi və bioloji sistemlərin genişləndirilməsi, topogeodeziya vasitələri ilə təminat, bu sahədə yüksək ixtisaslı kadrların hazırlanması və digər məsələlər müzakirə edilib.

İclasda ümumilikdə 20 məsələyə baxılıb.

## Hava hücumundan müdafiə bölmələri döyüş atışları icra edib

(Əvvəli 1-ci səhifədə)

Peşəkarlığın əldə olunmasında mütəmadi keçirilən hərbi təlimlərin rolu danılmazdır. Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda təlimlər zamanı qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, həmçinin maddi-texniki təminat məsələləri də yoxlanılır. Bütün bunlar silahlı münaqişədə zəfər üçün zəruridir və buna görə də uğurlu təlimlər hərbi əməliyyatların başlanması və keçirilməsinin əsl qabiliyyətini göstərir.

Bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına uyğun olaraq ümumqoşun birliklərinin hava hücumundan müdafiə bölmələri döyüş atışlarını yerinə yetirib.



Təlim məşqləri zamanı hərəkətdə olan müxtəlif parametrli hədəflər döyüş heyətləri tərəfindən aşkar olunaraq məhv edilib.

Qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirən şəxsi heyətin biliyi, bacarığı və praktiki vərdişləri yüksək qiymətləndirilib.

Hava hücumundan müdafiə bölmələrinin həyata keçirdiyi son döyüş atışları da Azərbaycan Ordusunun hazırlığını, döyüş qabiliyyətini əyani surətdə göstərir. Bu gün Azərbaycan Ordusu özünün maddi-texniki bazası, silah-sursat təminatı ilə fərqlənir. Azərbaycan zabitinin biliyi, savadı, döyüş qabiliyyəti, hərbi hazırlığı, müasir texnikaları dərindən mənimsəməsi keçirilən bu döyüş atışlarında da təsdiqini tapdı. Bütün bunlar onu deməyə əsas verir ki, xalq haqlı olaraq ordusuna güvənir, onunla fəxr edir.Tezliklə Azərbaycan Ordusu xalqın arzusunu yerinə yetirəcək, qarşı tərəfə diktə edəcək ki, onun şəxsi heyəti torpaqlarını qorumaq iqtidarındadır.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Bakıda "Eternity-2019" təlimi keçiriləcək

Sentyabrın 2-də Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimi başlayır.

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçiriləcək nəzəri və praktiki hissədən ibarət olan təlimdə üç ölkənin hərbi bölmələri və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra edəcəklər.

Təlim sentyabrın 6-dək davam edəcək.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*27 avqust 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Müdafiə Nazirliyi: İsrail dronlarının İraqa və İrana hücum məqsədilə Azərbaycana gətirilməsi barədə məlumatların heç bir əsası yoxdur

*Bəzi xarici internet media resurslarında ABŞ tərəfindən İsrail dronlarının İraqa və İrana hücum məqsədilə Azərbaycana gətirilməsi barədə məlumatlar yayılıb.*

Bununla bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər ki, bu məlumatların heç bir əsası yoxdur, yalandır və dezinformasiya məqsədi daşıyır.

Qeyd edək ki, yayılan məlumatlarda "Həşd əl-Şaabi" (Xalq səfərbərlik bölmələri) qruplaşmasının komandiri Əbu Mehdi Əl-Mohandisinin ABŞ-ı İraq və İranı hədəfə almaq üçün 4 İsrail dronunu Azərbaycana gətirməkdə ittiham etdiyi bildirilir. Onun bu iddiası İraq silahlılarının Səlahəddin vilayətində yerləşən bazasının İsrail tərəfindən hədəfə alınmasından bir ay sonra səsləndirilib.

*Müsahibə*

# Fədakarlıq

*Şəxsi heyətin döyüş hazırlığı həm də təlimlərlə bağlıdır. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən təlimlər hərbi qulluqçuların bacarıq və vərdişlərinin təkmilləşdirilməsinə xidmət edir. Eyni fikirlər Hərbi Hava Qüvvələrinə də aiddir. Pilotlarımızın döyüş hazırlığı təlim-məşq uçuşlarıyla təkmilləşir, onların peşəkarlığı artır. Plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşunda Hərbi Hava Qüvvələrimizin MiQ-29 təyyarəsi qəzaya uğradı. Dənizdə axtarışlara başlanıldı. Axtarışlarda bir sıra aidiyyəti qurumlarla birgə Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidməti də iştirak edirdi. Keçirilən axtarış əməliyyatlarında iştirak edən xidmət rəisinin birinci müavini general-mayor Məhərrəm Həsənov əməkdaşımızın suallarını cavablandırıb.*



***- Cənab general, elə qəzalar var ki, onların qarşısını almaq mümkün olmur, yalnız onun necə baş verməsi araşdırılır. MiQ-29-un qəzaya uğrama səbəbləri, ancaq təyyarə tapıldıqdan sonra aydınlaşacaqdı.***

- Bəli. Bu, çox ağır bir hadisə idi. Müharibəyə cəlb olunmuş bir dövlətin döyüş təyyarəsinin qəzaya uğraması, pilotun taleyi - hər iki amilə dövlət əlahiddə diqqət yetirirdi.

Hadisə haqqında məlumat alan kimi ehtimal edilən əraziyə toplaşdıq. Dənizdə axtarış işlərinin öz spesifik xüsusiyyətləri var. Biz dövlət əhəmiyyətli bu mühüm tapşırığa ən bacarıqlı, yüksək hazırlığa malik dalğıcları cəlb etdik. Altı nəfər dalğıcın altısı da peşəkardır. Hər birinin beynəlxalq dərəcəli sertifikatı var və Türkiyədə Sualtı Hazırlıq Mərkəzində beynəlxalq dalğıc kursu keçib.

Əməliyyatın çətinliyi iki amillə bağlı idi. Qəza baş verən yer dəqiq məlum deyildi. Onun yerinin müəyyən edilməsində Hərbi Hava Qüvvələrinin böyük xidməti qeyd edilməlidir. Təyyarənin radardan itməsi anında onun istiqaməti, sürəti və uçuş hündürlüyü təyyarənin dənizə düşdüyü ərazini təxmin etməkdə əhəmiyyətli oldu.

***- Əməliyyatın çətinliyi təkcə bununla bağlı olmayıb.***

- Əlbəttə. Bu axtarış cənab nazir general-polkovnik Kəmaləddin Heydərovun nəzarəti, Xüsusi Riskli Xilasetmə Xidmətinin rəisi general-mayor Şahmar Paşayevin rəhbərliyi ilə böyük bir ərazidə aparılırdı. Bu işə Hərbi Dəniz Qüvvələrinin və ARDNŞ-nin gəmiləri də cəlb olunmuşdu. Buna baxmayaraq, qardaş Türkiyənin köməyindən də istifadə edilməsi qərara alındı. Yeri gəlmişkən, böyük qardaşlıq köməyinə görə Türkiyədən gəlmiş HDQ-nin xilasetmə qrupunun üzvlərinə təmsil etdiyim qurum adından minnətdarlığımı bildirirəm.

Hava şəraiti axtarışları normal aparmağa imkan vermirdi. Bəzən dalğanın hündürlüyü iki metrə çatırdı ki, bu da, sözün əsl mənasında, 20-23 metr dərinlikdə işləyən dalğıc üçün olduqca ciddi risk idi. Dalğıclar qrupunun dənizdə axtarışına leytenant Elmar Ağasiyev rəhbərlik edirdi. Türkiyənin axtarış qrupunun texniki vasitələrindən də istifadə edildi və qeyd edim ki, bu, əməliyyatın uğurla nəticələnməsində olduqca əhəmiyyətli oldu.

Təxmini ərazidə ilk nişanələri gəmi heyəti aşkarladı. Bundan sonra dalğıclar həmin koordinata endirildi. İlk tapılan hissələr təsdiqlədi ki, axtarış üçün ərazi düzgün müəyyənləşdirilib. Dalğıclar şübhəli, ilk baxışda əhəmiyyətsiz görünən xırda obyektləri də yoxlayırdılar. Bilirdilər ki, belə axtarışlarda əhəmiyyətsiz heç nə olmur. Əvvəlcə, dalğıclar təyyarənin kiçik bir hissəsini suyun üstünə çıxardılar. Bu, qanadın bir hissəsiydi və axtarışların uğurla davam etdirilməsində stimul oldu.

Qeyd edim ki, belə axtarışlarda dalğıc su altında orta hesabla 20-25 dəqiqə qala bilir. Bu isə təxminən 25 metr dərinlikdə axtarışı dəqiqliklə aparmağa, ərazini diqqətlə izləməyə çətinlik yaradır. Dalğıclarımız - baş leytenant Cavanşir Nəsrullayev, leytenant Elmar Ağasiyev, gizir Səid Şirəliyev, gizir Elxan İsgəndərov, gizir Cəfər Cəfərov və gizir Orxan Allahverdiyev əsl fədakarlıq göstərdilər.

***- Cənab general, axtarış haqqında bir qədər geniş məlumat verməyinizi xahiş edirəm.***

- Belə hava şəraitində dalğıcların ciddi xəsarət alma ehtimalları da vardı. Yüksək peşəkarlıq, iradi keyfiyyətlər, dövlətə, dövlətçiliyə sədaqət bu ehtimalları dönməzliklə üstələdi... Suya endirilən robotlar su altında idarə olunmaqla 2 saatdan çox işləyə bilir. Robotun müəyyənləşdirdiyi obyekt haqqında məlumat aldıq. Mütəxəssislər o obyektin məhz "qara qutu" olduğunu qətiləşdirdilər. Həmin anlarda dənizdə güclü dalğa vardı. Dənizin sakitləşməsini gözləmək olmazdı. Sualtı axın "qara qutu"nu qeydə alındığı yerdən uzaqlaşdıra bilərdi. Dalğıclar qrupunun rəhbəri leytenant Elmar Ağasiyev bu mühüm tapşırığı gizir Elxan İsgəndərova həvalə etdi. Belə məqamlarda təkcə peşəkarlıq kifayət etmir. Yüksək əzmkarlıq, vətənpərvərlik də lazım gəlir. Leytenantın seçimi məni də qane etdi. Son dərəcə təhlükəli bir şəraitdə gizir Elxan İsgəndərov suya endirildi. Vaxt dayanmışdı elə bil, bizə elə gəlirdi ki, zaman ləng ötüşür. Aradan nə qədər keçdiyinin fərqinə varmağa macal tapmamış Elxanın "qara qutu"nu tapdığı məlumatını aldıq. Bu, olduqca böyük uğur idi. Yeri dəqiq bilinməyən ərazidə bu səviyyədə axtarış və bu qədər dəyərli bir tapıntı - əlbəttə ki, böyük nəticə idi.

Yeri gəlmişkən, sonra Elxandan soruşublar ki, koordinatına üzdüyün əşyanın "qara qutu" olduğunu görəndə hansı hissləri keçirdin. Dalğıc "Əmri dəqiqliklə yerinə yetirən əsgər hansı hissləri keçirərsə, həmin hissləri keçirdim. "Qara qutu"nu oradan nəyin bahasına olursa-olsun, dartıb çıxarardım", - cavabını verib.

Axtarışlar pilotun tapılması istiqamətində davam etdirildi. Əslində, belə axtarışlarda ardıcıllıq müəyyənləşdirilmir, tapılan oriyentir kimi qəbul olunur və axtarış davam etdirilir...

Polkovnik-leytenant Rəşad Atakişiyevin peşəkar, nümunəvi, vətənpərvər zabit olduğunu bilirdim. Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı" devizi ilə keçirilən birgə taktiki-uçuş təlimlərində də, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm hərbi paradlarda da Rəşadın uçuşlarını mən də böyük qürurla izləmişdim. Onun həlak olması hamı kimi mənim də ürəyimi göynədirdi. Ağır faciəydi, ancaq pilotumuzun nəşini tapmalıydıq, onun Vətən naminə xidməti müqabilində kiçik bir təsəlli kimi...

Polkovnik-leytenant Rəşad Atakişiyevin nəşi tapıldı...

***- Cənab general, axtarışın çətinlikləri haqda məlumat verdiniz. Bunları nəzərə alsaq, dalğıcların işinə, ümumən axtarış prosesinə fədakarlıq deyə bilərikmi?***

- Bəli, belə bir qəza, yeri məlum olmayan qəza, çətin hava şəraiti nəzərə alınmalı məqamlardır və bunlar birmənalı şəkildə təsdiqləyir ki, qəzaya uğramış MiQ-29 təyyarəsinin axtarışı da, nəticəsi də əsl fədakarlıqdır.

Axtarış yekunlaşandan sonra dalğıclarla görüşdə öyrəndim ki, dalğıclar əsl vətənpərvərlər kimi iştirak ediblər, yəni onların hər biri təkcə vəzifə borcunu deyil, həm də insani borcunu böyük fədakarlıqla yerinə yetiriblər. Mən bir zabit kimi onlarla fəxr edirəm. Onlar Ali Baş Komandanın əmriylə torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşlərə də hazırdır.

Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları vəzifə borcunu fövqəladə məsuliyyətlə yerinə yetirdi. Bu məsuliyyət də Vətənə xidmətdir. Fövqəladə hallar Fövqəladə Hallar Nazirliyinin, bu sıradan Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşlarının ön cəbhəsidir və hər biri ön cəbhələrdə qətiyyətlə, əzmlə, dəyanətlə, ən başlıcası Vətənə sevgiylə xidmət edir...

**Söhbətləşdi:**
**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Hərbi hissələrdə gənc əsgərlərə psixoloji dəstək fəaliyyətləri həyata keçirilir



*Hərbi hissələrdə gənc əsgərlərin hərbi xidmətə adaptasiya olunması, mənəvi-psixoloji hazırlığı istiqamətində həyata keçirilən psixoloji iş fəaliyyətləri davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin işçi qrupu tərəfindən hərbi hissələrin məsul şəxsləri ilə hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi mövzusunda təlim-metodiki məşğələlər keçirilir və psixoloji iş fəaliyyətlərinin təşkil edilməsinə dair müvafiq tövsiyələr verilir.



Eyni zamanda hərbi qulluqçularla qrup şəklində və fərdi olaraq psixoloji söhbətlər aparılır, hərbi xidmətə uyğunlaşma dövrünü yaşayan gənc əsgərlərə dəstək tədbirləri keçirilir.

AZƏRBAYCAN ORDUSU

# “Hərbiyyə” hərbi vətənpərvərlik düşərgəsinə start verilib

*Avqustun 26-da Gədəbəy rayonunda "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin açılış mərasimi təşkil olunub. Layihə "ASAN xidmət", Müdafiə Nazirliyi, "ASAN Könüllüləri" Təşkilatı, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Gədəbəy rayon İcra Hakimiyyəti və "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilib.*





Açılış mərasimindən öncə iştirakçılar Şəmkir rayonunda yerləşən Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Mərasimdə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, zabit heyəti və digər qonaqlar iştirak ediblər.

İştirakçılar ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, hörmət və ehtiramlarını bildiriblər.

Qonaqlar çıxış edərək əsası ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən hərbi quruculuqdan, o cümlədən ölkəmizin müxtəlif regionlarının sosial-iqtisadi inkişafından söz açıblar. Həmçinin diqqətə çatdırılıb ki, "ASAN Könüllüləri" tərəfindən dövlətçiliyin möhkəmləndirilməsi və gənclərin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində uğurlu layihələr icra olunub.

Sonra "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin iştirakçıları hərbi bölmələrdə zabit və əsgərlər üçün yaradılmış şəraitlə yaxından tanış olublar.

Daha sonra tədbir iştirakçıları Gədəbəy rayonuna gəliblər. İştirakçılar əvvəlcə Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Düşərgə üzvləri, həmçinin Gədəbəy rayonunun mərkəzində ucaldılmış Sovet İttifaqı Qəhrəmanı Nadir Quliyevin və Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun abidəsini ziyarət edib, hər iki döyüşçünün xatirəsini böyük hörmət və ehtiramla anıblar. Tədbirdə Məzahir Rüstəmovun valideynləri də iştirak edib. Çıxış edən polkovnik Abdulla Qurbani hər iki döyüşçünün keçdiyi şərəfli ömür yolu və şücaəti barədə düşərgə üzvlərinə ətraflı məlumat verib. Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atası, professor İzzət Rüstəmov çıxış edərək nəinki onların övladlarına, eləcə də Vətən uğrunda canından keçən bütün şəhidlərin xatirəsinə dövlətimiz tərəfindən böyük hörmət və ehtiram göstərildiyinə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə edib.

Sonda "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin iştirakçıları Gədəbəy rayonunda yerləşən yaylağa gəliblər.

Tədbiri açan polkovnik Abdulla Qurbani son illərdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılmış ordu quruculuğundan və qazanılmış uğurlardan danışıb. Bu cür tədbirlərin gənclər arasında vətənpərvərlik hissinin yüksəlməsinə xidmət etdiyini deyən A.Qurbani Aprel döyüşlərinin düşmənə sarsıdıcı zərbə vurduğunu, işğal altında olan torpaqlarımızın isə tezliklə Azərbaycan Ordusunun gücü ilə geri qaytarılacağına əminliyini ifadə edib.



Tədbirdə çıxış edən Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov gənclər üçün bu cür hərbi düşərgələrin keçirilməsinin vacibliyini qeyd ediblər.

Çıxışlardan sonra hərbi orkestrin ifasında müxtəlif marşlar səslənib, xüsusi təyinatlıların nümunəvi çıxışları təqdim edilib.

Qeyd edək ki, 26-30 avqust tarixini əhatə edəcək "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsində iştirakçılar müxtəlif peşəkar hərbi təlimlərə cəlb olunacaq, taktiki hazırlıq, qarovul, atəş, topoqrafiya, komandir və digər hərbi hazırlıqlarda iştirak edəcəklər. Eyni zamanda konfrans iştirakçıları müxtəlif tarixi-mədəni ərazilərə ekskursiyalar təşkil olunacaq.

**AZƏRTAC**

# Azərbaycan İsveçrədə keçirilmiş Qlobal Sülh Konfransında təmsil olunub

*İsveçrənin Bazel şəhərində Sülh və Dialoq İnstitutu tərəfindən Bazel Qlobal Sülh Konfransı təşkil edilib. Yalnız xüsusi dəvət olunanların iştirak edə bildiyi tədbirdə İsveçrənin, ABŞ-ın nüfuzlu beyin mərkəzlərinin, KİV-lərin nümayəndələri, elm xadimləri, həmçinin bir sıra mötəbər QHT-lərin təmsilçiləri iştirak ediblər.*

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İsveçrədəki səfiri Xanım İbrahimova konfrans çərçivəsində "Sülhün və təhlükəsizliyin təmin olunmasında mədəniyyətlərarası dialoqun rolu" adlı sessiyada mühazirə ilə çıxış edib. O, insan hüquqları, İsrail-Fələstin münaqişəsində Azərbaycanın mövqeyi, beynəlxalq münasibətlərdə kiçik dövlət-böyük dövlət qarşıdurması, nüvə təhlükəsizliyi, Azərbaycanın xarici dövlətlərlə əlaqələri və s. mövzularda tədbir iştirakçıları tərəfindən ünvanlanmış çoxsaylı sualları cavablandırıb.

Diplomat qeyd edib ki, dünyada zorakı ekstremizm, ksenofobiya və ayrı-seçkiliyin tüğyan etdiyi bir dövrdə Azərbaycanın multikulturalizm ənənələri sülh quruculuğunda mühüm rol oynaya bilər. Müxtəlif mədəniyyətlərə, dinlərə və irqlərə hörmət Azərbaycan xalqının mənəvi dəyərlərinin ayrılmaz tərkib hissəsidir.

Azərbaycanda yaşayan müxtəlif etnik və dini qruplar barədə məlumat verən X.İbrahimova yəhudi icmasına toxunaraq qeyd edib ki, hazırda Azərbaycanda yeddi sinaqoq, iki yəhudi məktəbi, üç uşaq bağçası və İşiva kolleci fəaliyyət göstərir. Xristian icmasının da ölkəmizdə sülh şəraitində yaşadığını söyləyən X.İbrahimova bu kontekstdə 2002-ci ildə Papa II İohan Pavelin Azərbaycana səfərinə toxunub, bu səfər zamanı ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda fəaliyyət göstərən Katolik Kilsəsinə torpaq sahəsinin ayrıldığını və bu sahədə Müqəddəs Məryəm Kilsəsinin Heydər Əliyev Fondu və Qafqaz Müsəlmanları İdarəsinin maliyyə dəstəyi ilə tikilib ölkəmizin xristian icmasının istifadəsinə verildiyini diqqətə çatdırıb. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təkcə Azərbaycanda deyil, bütün dünyada dini, mədəni və sosial obyektlərin bərpası və inşasına diqqət yetirdiyi, misal olaraq, Vatikanda kilsənin bərpası, Pakistanda məktəb tikintisi kimi layihələri uğurla başa çatdırdığı bildirilib. Bundan başqa, Azərbaycanın sünni və şiələrin sülh şəraitində yaşadığı və məsciddə birgə namaz qıldıqları nadir ölkələrdən biri olduğu da vurğulanıb.

Azərbaycan hökumətinin ölkə daxilində multikulturalizmi dövlət siyasəti elan etməklə yanaşı, ölkə xaricində də mədəniyyətlərarası dialoqu təşviq etdiyi və bu məqsədlə 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Bakı Prosesi"nin əsasının qoyulduğu qeyd edilib. Bildirilib ki, "Bakı Prosesi" bu gün BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş termindir və bu proses çərçivəsində Azərbaycan hökuməti və Mədəniyyət Nazirliyinin təşkilatçı, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESKO), Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaş qismində çıxış etdiyi Mədəniyyətlərarası Dialoq forumları təşkil edilir. X.İbrahimova "Bakı Prosesi"ni ölkəmizin İslam və Qərb dünyası arasında dialoqa töhfəsi kimi xarakterizə edib.

Eyni zamanda, konfrans iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsi və bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının işğalı, azərbaycanlı əhalinin etnik təmizləməyə məruz qalması barədə məlumatlandırılıb. Bu münaqişənin yaratdığı faciəvi nəticələrə baxmayaraq, Azərbaycanın müasir dövlət qurmağa nail olduğu və bugünkü beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olduğu vurğulanıb.

# Türk dünyasının qəhrəmanlıq salnaməsi




## Qürurla xatırlanan tarixi gün

XX əsrin əvvəlləri Türkiyənin dövlətçilik tarixində yeni bir səhifə açaraq, qurtuluş müharibələri, istiqlal illəri kimi tarixləşdi. 1914-1918-ci illəri əhatə edən Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövlətinin ərazilərinin imperialist dövlətlər arasında bölüşdürülməsi planının qarşısı əzmkar türk xalqının milli mübarizəsi sayəsində qətiyyətlə alındı. Türk milləti dünyanın müstəmləkəçi dövlətlərinin parçalama siyasətini iflasa uğradıb istiqlal mübarizəsinə başladı və bu ölüm-dirim mübarizəsindən qalib çıxdı. 30 avqust Türkiyə Respublikasının dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı.

Türkiyə 1922-ci il 30 avqustda dövlətçilik tarixinin qürur səhifəsini yaşayaraq, sərkərdə Mustafa Kamal Paşanın başçılığı altında işğalçı qüvvələrdən azad olundu. Bu böyük hadisə Türkiyə tarixinə Zəfər bayramı kimi yazıldı. Türk xalqı Zəfər bayramını ilk dəfə 30 avqust 1923-cü ildə Afyonqarahisar, Ankara və İzmirdə təntənəli şəkildə keçirilməsinə nail oldu. Dövlət bayramı kimi 1936-cı ilin mayında rəsmi bayram elan edildi.

Bu gün Türkiyədə, eyni zamanda Azərbaycanda da 30 Avqust - Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü geniş tədbirlərlə təntənəli şəkildə qeyd olunur. Zəfər bayramının əhəmiyyəti ondan ibarətdir ki, Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan qosqoca Türkiyəni parçalayaraq, onu işğal altında saxlamaq arzusunda olan güclü dövlətlər məhz 30 avqust qələbəsindən sonra işğalçı niyyətlərinin heç bir vaxt baş tutmayacağını, Anadoluya sahib ola bilməyəcəklərini bir daha anladılar. Dünyanın nəhəng imperiyaları iki min illik hərb tarixi olan türk xalqının Vətənə olan sonsuz sevgisi, azadlıq eşqi qarşısında aciz qaldıqlarını etiraf etməyə məcbur oldular. Düşmən öz qoşununu Türkiyə ərazisindən çıxardığı zaman onun əsgər və zabitləri Vətən uğrunda şəhid olan türklərin al qanına boyanmış aylı-ulduzlu bayrağa heyrətlə, təəccüblə baxmış, onun qarşısında baş əyməyi də unutmamışdılar.

## Yenilməz türk ordusunun əməliyyat planı və misilsiz qələbəsi

Ötən əsrin 20-ci illərinin əvvələrinə dair Türkiyə ordu tarixində "Böyük hərbi hücum" adlandırılan hərbi əməliyyat planı yüksək peşəkarlıqla, tam məxfi qriflə hazırlanıb həyata keçirilmişdi. 1922-ci ilin yay aylarında azadlıq mücadiləsinin banisi Mustafa Kamal Paşa cəbhədəki vəziyyəti yerində öyrənmək və ordunun hərbi əməliyyatlara hazırlıq səviyyəsinin yüksəldilməsinə şəxsən nəzarət etmək üçün qərb cəbhəsinə yollanmağı planlayırdı. Ancaq Yunanıstan və bir çox dövlətlər onun hər addımını diqqətlə, qorxu içərisində izləyirdilər. Onların Mustafa Kamal Paşanın qərb cəbhəsinə gəlməsindən xəbər tutmaları, özü tərəfindən hazırlanan hərbi əməliyyat planının uğurla həyata keçirilməsinə mane ola bilərdi. Səfərin sirr olaraq saxlanılması mühüm əhəmiyyət kəsb edirdi. Bu məqsədlə Ankara guya Mustafa Kamal Paşanın 1922-ci il iyulun 24-də Konyaya gələrək ingilis generalı Tovnşedlə görüşəcəyi barədə xəbərlər yaydı. Atatürk iyulun 23-də qərb cəbhəsi qərargahında İsmət Paşadan cəbhədəki vəziyyət haqqında məlumat aldı. İyulun 28-də isə o, Ağşəhərdə Fevzi Çakmak və İsmet İnönü ilə keçirdiyi məxfi toplantıda özünün hazırladığı hərbi əməliyyat planını müzakirəyə çıxardı.

Bu əhəmiyyətli toplantının daha geniş bir müzakirə və müşavirə mahiyyəti qazanması məqsədilə bəzi hərbi korpusların komandirləri də Ağşəhərə çağırılmışdılar. Belə gərgin günlərdə komandirlərin müşavirə keçirmələri şübhə yarada bilərdi. Buna görə də iyulun 28-də zabitlər arasında futbol yarışı təşkil olundu. Hərbi korpuslarda xidmət edən zabitlərlə keçirilən bu yarışı korpus komandirləri də "izlədilər". Türkiyə mətbuatı da Ağşəhərdə keçirilən futbol matçını geniş işıqlandırdı. Hətta Mustafa Kamal Paşanın, İsmət Paşanın, səhə qərargah rəisi Asim bəyin yarışı izləməsinin zabitlərdə böyük ruh yüksəkliyi yaratdığı barədə məlumatlar da qəzetlərdə dərc olundu. Bununla da gizli keçirilən fövqəladə müşavirədən heç kəsin xəbəri olmadı. Türk ordusu hücuma tam hazır vəziyyətə gətirilmişdi. Lakin bəzi dövlətlər "sülh" məsələsini gündəmə gətirdiklərinə görə, Yunanıstanla sülh danışıqları aparılmadan hərbi əməliyyatlara başlanılması həmin dövrdə beynəlxalq ictimaiyyət tərəfindən "düzgün" başa düşülməzdi. Buna görə də Türkiyə diplomatları qonşu ölkənin diplomatları ilə növbəti danışıqlara başladılar. Türkiyə tərəfi Yunanıstandan öz ordusunu qeyd-şərtsiz Anadoludan çıxarmağı bir daha tələb etdi. Ancaq yunanlar bu tələbi açıq şəkildə rədd etdilər və həmin ərazilərin onlara aid olduğunu dəfələrlə vurğuladılar. Beynəlxalq ictimaiyyətin "gözü" qarşısında aparılan sülh danışıqları bir daha nəticə verməadi və bu, Mustafa Kamal Atatürkə tam əsas verdi ki, hərbi əməliyyatlara yenidən başlasın.

Mustafa Kamal Paşa hücum barədə qərar qəbul etdikdən sonra 1922-ci il avqustun 18-də gecə Ankaradan qərb cəbhəsinə getdi. Bu tamamilə gizli saxlanılmışdı. Hətta mətbuata və xəbər agentliklərinə Mustafa Kamal Paşanın avqustun 21-də Çankaya köşkündə ziyafət verdiyi bildirilmişdi. Əslində isə o, qərb cəbhəsi qərargahında hərbi əməliyyatlara hazırlığı yoxlayır, lazımi göstərişləri verirdi. Türk ordusu hücum üçün sübh çağını gözləyərkən, yunan ordusunun zabitləri general Trikopislə birlikdə Afyonda "Böyük Yunanıstan" şərəfinə verilən ziyafətdə "böyük qələbə"ni qeyd edirdilər.

26 avqust 1922-ci ildə səhər sübh tezdən Kocatəpədən başlayan meydan müharibəsi böyük türk xalqını ağır sınağa çəkir... Mustafa Kamal Paşanın komandanlığı ilə idarə edilən döyüşdə qəhrəman türk ordusu cənub, şimal istiqamətlərindən hərəkətə başlayır və sürətlə irəliləyir. Türk ordusu yunanların müdafiə xəttini yarır və 26-27 avqust tarixlərində düşmən qüvvələrinin silah-sursatı ələ keçirilir. Yunanların cəbhəsində yaranan zəiflik Afyonun işğaldan azad olunması ilə nəticələnir. Dumlupınara doğru geri çəkilən bütün yunan ordusu məğlub olur...

Hücumun avqustun 26-a təyin edilməsi türk tarixini dərindən bilən Mustafa Kamal Atatürkün böyüklüyünü, müdrikliyini bir daha təsdiq edirdi. Mustafa Kamal Atatürkün əsas məqsədi Anadolunu dünya türklərinin əbədi məkanına, istiqlaliyyət ocağına, türk dünyasının dayağına çevirmək idi. Çünki on yeddi imperiya quran türklər on səkkizinci dövlətlərini - Türkiyə Cümhuriyyətini qurmaqla iki min illik dərin dövlətçilik ənənələrini Anadoluda qoruyub saxlamağa qərar vermişdilər. Əsrlərin, yüzilliklərin sınağından uğurla çıxan bu ənənələrin yaşadılmasında daim aparıcı mövqedə olan Azərbaycan türkləri İstanbulun fəthində Fatih Sultan Mehmetin müəllimi Ağşəmsəddinin, 1922-ci ildə isə "Böyük hərbi hücum"da könüllü iştirak edən yüzlərlə əsgər və zabit həmyerlilərimizin simasında qan qardaşları ilə birlikdə bu missiyanı uğurla yerinə yetirdilər. Bu qardaşlıq yardımı, bu həmrəylik türk dünyasına növbəti şanlı zəfərini bəxş etdi. Düşmən tam məğlubiyyətə uğrayaraq geri çəkilməyə məcbur oldu. Yeni qurulacaq qüdrətli dövlətin ərazisinin böyük bir qismi düşməndən azad edildi. Dünya bir daha gördü ki, Malazgirt zəfərinin qazanılması üçün gecə vaxtı atla dəniz boğazını üzüb keçən, İstanbulu fəth etmək üçün gəmiləri qurudan aparan türklərin qəhrəmanlığı, fədakarlığı və yenilməzliyi əbədi olaraq türk millətinin timsalında yaşayacaqdır.

"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" deyən böyük Atatürkdən və "Bir millət, iki dövlət" söyləyən ulu öndər Heydər Əliyevdən aldığımız bayrağı daha irəli aparmaq bu gün hər bir türkün müqəddəs vəzifəsidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Gənc kursantlarla görüş keçirildi



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə yeni qəbul olan gənc kursantlarla təhsil ocağında görüş keçirildi.



Tədbirdə Bakı şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabit və kursant heyəti və incəsənət nümayəndələri iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabiti polkovnik Emin Səfərov gənc kursantları təhsil ocağına qəbul olmaları münasibəti ilə təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı. Natiq bildirdi ki, bu gün ordumuzda xidmət edən zabitlərin əksəriyyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarıdır. "Hər il yüzlərlə gənc bu məktəbi bitirərək ordu sıralarına xidmətə yollanır. Biz Azərbaycan Ordusunun zabiti, eyni zamanda Azərbaycan dövlətinin vətəndaşı olduğumuz üçün fəxr edirik. Arzu edirəm ki, siz ali hərbi məktəbi yüksək nailiyyətlərlə bitirib, xidmətə yollanasınız və Ali Baş Komandanımızın hər bir əmrinə hazır olasınız. Bir daha sizləri hərbi təhsil müəssisəsinə qəbul olmağınız münasibətilə təbrik edirəm. Sizlərə cansağlığı, gələcək xidmətlərinizdə uğurlar arzulayıram. İnanırıq ki, qarşınızda duran bu dörd il daha səmərəli keçirəcək, təhsil ocağında əldə etdiyiniz bilik və təcrübələri Azərbaycan Ordusunun inkişafına sərf edəcəksiniz".

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov da gənc kursantları təbrik etdi. "Bildiyiniz kimi, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Ulu Öndər həmişə ali hərbi təhsil müəssisəsinin fəaliyyətinə böyük diqqət və qayğı göstərmişdir. Həmin diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı gündən-günə artır. Bu gün biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitmədiyindən biz hər an doğma torpaqlarımızı işğaldan azad etməyə hazır olmalıyıq. Ali Baş Komandanımızın rəhbərliyi ilə ərazi bütövlüyümüzü bərpa edəcəyik. Vətənin qorunması işində sizlər də fəal olmalı, bu yolda öz gücünüzü əsirgəməməlisiniz."

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra Bakı şəhər Mədəniyyət Baş İdarəsinin incəsənət nümayəndələri və Səma rəqs qrupu konsert proqramı ilə kursantlar qarşısında çıxış etdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın hərbi orkestri “Spasskaya başnya” beynəlxalq hərbi-musiqi festivalında iştirak edir



Avqustun 23-də Moskvada XII beynəlxalq hərbi-musiqi festivalına start verilib. Azərbaycanın ilk dəfə iştirak etdiyi festivalda ölkəmizi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri, habelə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı təmsil edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dünyanın ən böyük hərbi-musiqi festivalından sayılan "Spasskaya başnya"nın şərtlərinə uyğun olaraq hər komandaya çıxış üçün altı dəqiqə vaxt veriləcək. Bu müddət ərzində orkestrlər təmsil etdikləri ölkənin və digər dünya xalqlarının mahnı və marşlarını ifa edəcəklər.



On iki dövlətdən mindən artıq musiqiçi, vokalist və rəqqasın iştirak etdiyi festival sentyabrın 1-dək davam edəcək.

# Alabinoda qazanılmış uğurlar

## “Beynəlxalq Ordu Oyunları”nda Azərbaycan Ordusunun nümayəndələri yüksək nailiyyətlər qazandılar

*Mərhum xalq şairi Zəlimxan Yaqub ordu haqqında məşhur şeirində bir qədər sərt olsa da, haqlı olaraq deyir: Ordum varsa, yurdum var, ordum yoxsa, yurdum yox. Bu gün Silahlı Qüvvələrimizin qürur yerimiz olduğunu təkcə beynəlxalq ekspertlərin hazırladığı reytinq siyahısı, düşmənin təmas xəttində aldığı zərbələr göstərmir. Müstəqillik illərində nail olduğu güc və qüdrəti ordumuz həm də Rusiyanın təşəbbüsü ilə artıq beşinci dəfə keçirilən "Beynəlxalq Ordu Oyunları"nda dünyaya nümayiş etdirir.*

Bu il baş tutan "Beynəlxalq Ordu Oyunları" da Azərbaycan Ordusu və onun şəxsi heyət üçün yetərincə yaddaqalan oldu. Azərbaycan Ordusunun şəxsi heyətinin hərbi yarışlarda ölkəmizi yüksək səviyyədə təmsil etməsi ordumuzun hər uğuruna sevinən və onunla fəxr edən hər bir vətəndaş üçün bu oyunları əlamətdar hadisəyə çevirdi.

"Beynəlxalq Ordu Oyunları" getdikcə dünyada böyük populyarlıq qazanır. Builki yarışlara dörd qitədən, 39 ölkədən 6 min nəfərə qədər iştirakçının, o cümlədən 223 komandanın qatılması dediklərimizin bariz sübutudur. Statistik göstəricilər bu oyunların geniş miqyasından xəbər verir. 32 nominasiya üzrə müsabiqələr 10 ölkənin, o cümlədən Azərbaycanın ərazisində keçirildi. Döyüşçülərimiz yarışların altı - "Dəniz kuboku", "Tank biatlonu", "Səhra mətbəxi", "Hərbi-tibbi estafet", "Snayper həddi" və "Artilleriya atəşinin ustaları" nominasiyalarında ustalıqlarını nümayiş etdirməyə çalışırdılar.

Azərbaycan hərbçiləri arasında ən yüksək nəticəyə ölkəmizdə təşkil edilmiş yarışlarda hərbi dənizçilərimiz nail olmağı bacardılar. Bu böyük nailiyyətə görə ordumuzun HDQ komandasını təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq.

"Dəniz kuboku" müsabiqəsində dörd ölkənin - Azərbaycan, İran, Qazaxıstan və Rusiyanın hərbi gəmiləri iştirak edirdi. Komandalar "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" mərhələləri üzrə müxtəlif tapşırıqları yerinə yetirdilər. Beynəlxalq hakimlər briqadasının qərarına əsasən, Azərbaycan 212 balla birinci, Rusiya 186 balla ikinci, Qazaxıstan 142 balla üçüncü, İran komandası isə 136 balla dördüncü yerə layiq görüldülər. Beləliklə, Azərbaycan hərbi dənizçiləri rəqiblərini xeyli qabaqlamaqla "Dəniz kuboku-2019" müsabiqəsinin qalibi oldular. Bu qələbə həm də Hərbi Dəniz Qüvvələrinin son illərdə döyüş hazırlığı sahəsində qazandığı uğurlar nəticəsində mümkün olub.

Artilleriyanın quru qoşunlarının əsas vuran əli olduğunu mütəxəssislər yaxşı bilirlər və müasir hərbi əməliyyatlarda onun böyük önəmi var. Xoşdur ki, "Beynəlxalq Ordu Oyunları"nda general Şıxlinskinin davamçıları ölkəmizi və ordumuzu ləyaqətlə təmsil edə bildilər. Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsində 11 ölkədən topçuların qatıldığı yarışlarda Azərbaycan Ordusunun bu qoşun növünün nümayəndələri hədəflərə sərrast atəş açıblar. Azərbaycan hərbçiləri Belarus, Ermənistan, İran, Venesuela, Suriya, Zimbabve artilleriyaçılarını qabaqlayaraq dördüncü nəticə göstəriblər. Müsabiqədə Qazaxıstan komandası birinci, Rusiya ikinci, Özbəkistan isə üçüncü yerə layiq görülüb.

Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsində 11 komanda arasında Azərbaycanın kişilərdən ibarət heyəti uğurla çıxış etdi və 111 xalla 3-cü yerə layiq görüldü. Bu növdə də Azərbaycan hərbi həkimləri Ermənistan, Belarus, Vyetnam və digər ölkələrin komandalarını bir çox göstəricilərə görə üstələməyi bacardılar. Özbəkistan hərbi təbabətçiləri "Hərbi-tibbi estafet" müsabiqəsində birinci, Qazaxıstanın komandası isə ikinci yerə çıxdı. Bu müsabiqənin nəticələri də göstərir ki, ordumuzda tibbin inkişafına yüksək diqqət yetirilir. Müsabiqənin yekununda Azərbaycan Ordusunun kişilərdən ibarət hərbi həkim komandası kubok və medalla təltif olundu.











"Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən "Səhra mətbəxi" müsabiqəsi də Azərbaycan hərbçiləri üçün uğurlu olub. Yarışda Rusiya Federasiyasının komandası birinci, Belarus ikinci, Qazaxıstan üçüncü, Azərbaycan komandası isə dördüncü nəticə göstərib. Arxa cəbhəçilərimiz bu nəticəyə 13 komanda arasında mübarizə apararaq nail olub. Müsabiqə zamanı komandamız Anqola, Ermənistan, Vyetnam, Konqo, İsrail, Car kimi ölkələrin komandalarını qabaqlamağı bacarıb.

"Snayper həddi" müsabiqəsində isə atıcılarımız səkkizinci oldular. 19 komanda arasında 8-ci olmaq da yüksək nəticədir. İnanırıq ki, Belarusda keçirilən yarışlar komandamız üçün təcrübə oldu və növbəti illərdə snayperlərimiz daha yüksək yerləri tutmağı bacaracaqlar.

"Beynəlxalq Ordu Oyunlar" çərçivəsində keçirilən "Tank biatlonu" yarışları xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Ordusunun tankçıları builki yarışlar zamanı, sözün həqiqi mənasında, sensasiya yaratmaqla hərbi mütəxəssisləri heyrətləndirməyi bacardılar. Sensasiya isə Alabino poliqonunda keçirilən yarımfinal yarışlarında baş verdi. Tank heyətimiz mütəxəssislərin ehtimallarını alt-üst edərək Qazaxıstan komandasından sonra ikinci yeri tutdu və finala çıxdı. Maraqlıdır ki, bu estafetdə tankçılarımız dünyanın ən güclü ordularından birinə malik və "Beynəlxalq Ordu Oyunları"na öz ölkələrinin istehsalı olan müasir tanklarda gəlmiş Çin komandasının finala çıxışına mane oldu.

Tankçılarımızın qəhrəmanlığı Rusiya kütləvi informasiya vasitələrinin diqqətindən yayınmadı. "Krasnaya zvezda" qəzetində işıq üzü görmüş "Birinci yarımfinalın sensasiyası" adlı yazıda qeyd edilirdi ki, poliqonun tribunasını doldurmuş tamaşaçılar tank estafeti yarımfinalında üstünlüyü Çin və Qazaxıstan yığmalarına verirdilər. Ancaq bu ehtimalların yalnız yarısı özünü doğrultdu. "Bu günün sensasiyası isə Azərbaycan komandasının ikinci yeri tutması oldu".

"Zvezda" telekanalının aparıcısı isə tankçılarımızın həmin günlərdə Alabino poliqonunda göstərdiyi şücaətdən heyrətləndiyini gizlətmirdi: "Final yürüşünə çıxmış komandalar barədə danışarkən, əlbəttə, ilk növbədə Azərbaycan Respublikasının komandasını ayrıca qeyd etmək lazımdır. Azərbaycan komandası, həqiqətən, praktik olaraq mümkün olmayanı etdilər və güclülər sırasına daxil oldular".

Tankçılarımızın final estafetində dördüncü yeri tutması, mütəxəssislərin də qeyd etdiyi kimi, yüksək nəticədir və bu, komandamızın ustalığından, onun böyük potensialından xəbər verir. Xatırlatmağa dəyər ki, "Beynəlxalq Ordu Oyunları"nın əsas müsabiqələrindən olan "Tank biatlonu"nda hərbçilərimiz 23 komandadan 19-nu arxada qoydu. Vətən oğulları Çin, İran, Serbiya, Özbəkistan, Venesuela, Vyetnam, Kuba, Myanma, Monqolustan, Anqola, Ermənistan, Zimbabve, Qırğızıstan, Küveyt, Laos, Suriya və başqa ölkələrin tankçılarından üstün olaraq adlarını "Beynəlxalq Ordu Oyunları"nın tarixinə yazdırmağı bacardılar.

"Beynəlxalq Ordu Oyunları"nın bağlanış mərasiminə getmiş Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Tank biatlonu" müsabiqəsinin finalına çıxmış tankçılarımızın Alabino poliqonunda mübarizəsini izlədi və qalib gəlmiş hərbi qulluqçuların mükafatlandırılmasında iştirak etdi. Xoşdur ki, "Tank biatlonu" müsabiqəsində ölkəmizi təmsil edən gizir Samir İsgəndərov göstərdiyi döyüş bacarığına görə "Beynəlxalq Ordu Oyunları-2019"un medalı ilə təltif edildi. Bu uğurlar ümumilikdə ordumuzun nailiyyətidir və uzun illərin zəhmətinin bəhrəsidir.

**Əbülfət QASIMOV**

Ordu və cəmiyyət

# “Xalq ordusuna inanır, ordu xalqına güvənir”

*Bu günlərdə Qaradağ rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qaradağ rayon Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının ön xətdə yerləşən "N" hərbi hissədə tədbiri keçirildi. Həmin gün YAP Qaradağ rayon təşkilatının Qadınlar Şurasının bir qrup fəal üzvü hərbi hissədə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış oldu, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə etdi.*



Qonaqlar burada həyata keçirilən islahatlarla tanış oldular, əsgərlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılan şəraitdən, ərzaq, əşya, eləcə də digər təminatın keyfiyyətindən məmnun qaldıqlarını bildirdilər, dövlət başçısına Azərbaycan Ordusunda xidmət edən övladlarımıza yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə etdilər.

Qonaqları müşayiət edən polkovnik Elşad Əbilov bildirdi ki, ordu quruculuğundakı uğurlar hamınızın gözü önündədir. Bütün bunlar - Azərbaycan Ordusunun gücünün, döyüş əhval-ruhiyyəsinin artırılması, müasir hərbi texnika ilə təchiz olunması, əsgərlərin, hərbi qulluqçuların məişət şəraitinin yüksəldilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanının göstərdiyi diqqət və qayğının məntiqi nəticəsidir.

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başladı.

Təşkil edilən konsert proqramına görə qonaqlara minnətdarlığını bildirən polkovnik Elşad Əbilov qeyd etdi ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövlətimizin başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə gündən-günə inkişaf edərək daha da qüdrətlənir. Prezident, Ali Baş Komandan İlham Əliyevin fəaliyyəti sayəsində Azərbaycanın möhtəşəm uğurlara nail olduğunu qeyd edən zabit respublikanın müdafiə qabiliyyətinin durmadan möhkəmləndiyini, hərbi-texniki potensialın gücləndirilməsi ilə Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü orduya çevrildiyini diqqətə çatdırdı: "Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir. Bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu da yüksək səviyyədədir. Azərbaycanın möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu var. Ali Baş Komandan cənab İlham Əliyevin apardığı ardıcıl siyasətin, diqqət və qayğısının məntiqi nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır".

YAP Qaradağ rayon Qadınlar Şurasının sədri Hicran Xəlilova qeyd etdi ki, XX əsrin sonlarında yenidən dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğunun, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider tərəfindən işlənib hazırlanmış mükəmməl siyasi islahatlar strategiyası müstəqil Azərbaycanın dünyanın aparıcı dövlətləri arasında nüfuzunun yüksəlməsinə zəmin yaratdı.

Bu gün respublikamızın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla davam etdirildiyini xüsusi olaraq vurğulayan Hicran Xəlilova bu sahədə qazanılan nailiyyətlərin qürur hissi doğurduğunu, respublikamızda siyasi-iqtisadi və sosial islahatların mütəmadi olaraq həyata keçirildiyini sözlərinə əlavə etdi.

Sonda Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində hərbi qulluqçularımıza uğurlar diləyən Qaradağ rayon Qadınlar Şurasının sədri bildirdi ki, dövlətimizin müstəqilliyi onların sayəsində əbədi, sarsılmaz, dönməz olacaq və Azərbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi ilə milli kimliyimiz olan bayrağımızı Şuşada, Xankəndində dalğalandıracaq.

YAP Qaradağ rayon təşkilatının sədr müavini Hicrət Qaradağlı qeyd etdi ki, güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. "Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə belə asanlıqla qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsi olaraq xalqımızın maddi rifahına təsir edən bütün tədbirlər Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaradıb. Bizim ön xətdə yerləşən bu hərbi hissəyə səfərimiz də ordu-xalq birliyinin təzahür forması və şəxsi heyətin mənəvi-psixoloji ruh yüksəkliyinin artırılmasına xidmət etmək məqsədilə atılmış addımdır. Biz ordumuza və onun şəxsi heyətinə inanırıq. Xalq ordusuna inanır, ordu xalqına güvənir".

Tədbirdə Qaradağ rayon 106, 288 nömrəli məktəblərinin və 8 saylı Bakı Peşə Liseyinin şagirdlərinin əsgərlərə ünvanladığı məktublar şəxsi heyətə çatdırıldı. Qaradağ rayon 106 nömrəli məktəbin direktoru Təranə Qasımova bildirdi ki, "Əsgərə məktub" layihəsinin əsas məqsədi əsgərlərimizə mənəvi dayaq olmaq, ictimaiyyətin ordu ilə birliyini daha da gücləndirmək, Vətəni qorumağa hər an hazır olan vətənsevər gəncləri yetişdirmək və məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsi işinə töhfə verməkdən ibarətdir. "Şagird məktublarında Azərbaycan əsgərinə göstərdiyi qəhrəmanlığa və möhkəm iradəyə görə minnətdarlıq ifadə edilir, xalqımızın hər bir nümayəndəsinin döyüşə hazır olduğu bildirilir və ərazi bütövlüyümüzün bərpasına sonsuz inam ifadə olunur. Hər birimiz inanırıq ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu Aprel və Günnüt zəfərlərinin davamı olaraq xalqımıza tezliklə Böyük Qələbənin sevincini yaşadacaq".

Daha sonra xidmətdə fərqlənən bir qrup əsgər və zabit YAP Qaradağ rayon Qadınlar Şurası tərəfindən mükafatlandırıldı, hərbi qulluqçulara hədiyyələr təqdim edildi. Rəsmi hissədən sonra gənc müğənnilər - Aydın Sani, Süleyman Niftəliyev, Zaur Əzimli, Zümrüd Məmmədova və başqalarının ifasında şəxsi heyət üçün hazırlanmış konsert proqramı ilə tədbir davam etdi. Yaradıcı kollektivin və incəsənət nümayəndələrinin vətənpərvərlik mövzusunda ifa etdikləri mahnılar böyük ruh yüksəkliyi və coşqu ilə qarşılandı.

Sonda qonaqlar təşkil olunmuş tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər, əsgər və zabitlərlə görüşdən xoş təəssüratla ayrıldılar.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Naxçıvan Qarnizonundan xəbərlər

## Naxçıvan Qarnizonunda komanda-qərargah təlimi keçirilib



"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, komanda-qərargah təlimi keçirilib.

Naxçıvan Qarnizonu qoşunlarında üçpilləli, ikitərəfli keçirilən komanda-qərargah təlimi planına əsasən mərhələlərlə icra edilib. Təlim çərçivəsində "Həyəcan" siqnalı ilə cəmləşmə rayonlarına çıxarılan qoşunların ən müasir vasitələrlə idarə olunması praktiki həyata keçirilib. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatları planlaşdırılıb. Praktiki fəaliyyətlərə cəlb edilən bölmələr döyüş atışlarını icra ediblər.

Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində qoşunların fəaliyyəti kompüterlər üzərində məşq etdirilərək komandirlərin döyüşü idarəetmə bacarıqları təkmilləşdirilib.

Təlimin sonunda icra edilmiş fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd olunub, növbəti təlimlərə hazırlıqla bağlı tapşırıqlar dəqiqləşdirilib. Ümumilikdə təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

## Əlahiddə Ümumqoşun Orduda yarış keçirilib



Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı istehkamçı" və "Ən yaxşı istehkamçı-kəşfiyyatçı" adı uğrunda yarış keçirilib.

Yarışa cəlb olunan mühəndis silahlanma vasitələrinə baxış keçirildikdən sonra hərbi qulluqçulara təhlükəsizlik qaydaları, yarışın məqsəd və mahiyyəti çatdırılıb.

Yarışda mühəndis-istehkam ixtisaslı əsgərlər piyada əleyhinə fuqas tipli və piyada əleyhinə idarəolunan tək minanın qurulması, ağac konstruksiyalı elementin hesabatının aparılaraq partladılması üsullarını praktiki yerinə yetiriblər. Sonra yarış iştirakçılarının nəzəri bilikləri test üsulu ilə yoxlanılıb.

Sonda qaliblər Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

## Əlahiddə Ümumqoşun Ordunun bölmələrində toplantı keçirilib



Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələri ilə mütəxəssis toplantısı keçirilib.

Toplantının sonunda SPQ-9 tank əleyhinə dəzgahlı qumbaraatanlardan döyüş atışları icra edilib.

Əsas məqsəd şəxsi heyətin və tank əleyhinə vasitələrin döyüş və döyüşə hazırlığının yoxlanılması olub.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüləri Qusarda "Yay məktəbi"nin iştirakçısı olub



*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüləri üçün Qusarda təşkil olunan "Yay məktəbi" başa çatıb.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, beş günlük layihəyə Azərbaycanın müxtəlif bölgələrindən 100-ə yaxın könüllü gənc cəlb olunub.

"Yay məktəbi"nin təşkilində məqsəd milli-mənəvi dəyərlərimizin inkişafında, maddi-mədəni irsimizin qorunmasında, həmçinin tarixən formalaşmış dəyərlərimizin gələcək nəsillərə ötürülməsində könüllülərin rolunu artırmaqdır.

Yay düşərgəsində iştirak edən könüllülər Qusarda Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Şəhidlər xiyabanı, Milli Qəhrəman Çingiz Qurbanovun məzarı, "Şahdağ" Turizm Mərkəzi, Həzrə kəndindəki Şeyx Cüneyd türbəsi, həmçinin Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı qəsəbə, Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

Könüllülər "Mənəvi dəyərlərin təbliği və könüllülük fəaliyyəti" mövzusunda məruzə dinləyib, intellektual, milli oyunların iştirakçısı olublar.




Mənəvi Dəyərlərin Təbliği Fondunun əsas missiyası Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

# "Ehtiyat zabit hazırlığı kursu"na qəbul başlayır

*Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək vətəndaşlar sentyabrın 2-dən 20-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.*

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Ehtiyat zabit hazırlığı kursu"na qəbul edilirlər.

"Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.



"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 2 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dərizöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 ədəd.

**Qeyd:** Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi)

**Telefon:** (012) 538-85-62

**Müraciət etmə vaxtı:** 2019-cu il sentyabrın 2-dən 20-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

# İdman

## Milli Qəhrəman Tahir Həsənovun xatirəsinə həsr olunan taekvondo üzrə açıq birincilik keçiriləcək



Sentyabrın 21-22-də Şağan Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun xatirəsinə həsr olunan taekvondo üzrə açıq birincilik keçiriləcək.

Yarışda 2002-2004-cü, 2005-2007-ci, 2008-2009-cu, 2010-2011-ci il təvəllüdlü oğlan və qızlar mübarizə aparacaqlar.

Uşaq, yeniyetmə və gənc taekvondoçular arasında təşkil olunacaq turnirin məqsədi bu idman növünü təbliğ və inkişaf etdirmək, ən yaxşı məktəbli taekvondoçuları aşkarlamaq, yığmaya namizədləri seçmək, məktəblərdə taekvondoya marağı artırmaq, məktəbliləri bu idman növü ilə müntəzəm məşğul olmağa cəlb etmək, onların ustalıq səviyyəsini artırmaqdır.

## Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatında ikinci qələbəsini qazanıb



Avqustun 26-da qadın voleybolçulardan ibarət Azərbaycan millisi Macarıstan, Polşa, Slovakiya və Türkiyənin birgə ev sahibliyi etdiyi Avropa çempionatında ikinci qələbəsini qazanıb.

C qrupunda mübarizə aparan millimiz üçüncü turda Macarıstan yığması ilə qarşılaşıb. Bosniya və Herseqovinadan olan baş hakim Sinisa Ovukanın idarə etdiyi oyunda millimiz 3:0 (25:21, 25:15, 25:22) hesabı ilə qalib gəlib.

Millimiz ilk oyunda Xorvatiya yığmasını 3:2 hesabı ilə məğlub edib. İkinci qarşılaşmada isə Hollandiyaya uduzub - 0:3. Hesabında 9 xal olan Hollandiya seçməsi qrupda birinci pillədə yer alıb. Rumıniya 6 xalla ikinci, Azərbaycan 5 xalla üçüncü, Xorvatiya 4 xalla dördüncü, Macarıstan isə 3 xalla beşincidir. Xalı olmayan Estoniya millisi isə qrupda sonuncu yerdədir.

## Bədii gimnastlarımız "Challenge" seriyasına aid dünya kuboku yarışlarında 3 medal qazanıblar



Rumıniyanın Kluj şəhərində bədii gimnastika üzrə "Challenge" seriyasına aid dünya kuboku yarışları keçirilib.

Aliyə Paşayeva, Darya Sorokina, Ayşən Bayramova, Zeynəb Hümmətova və Diana Əhmədbəylidən ibarət qrup hərəkətləri komandamıza çoxnövçülük proqramında 49.950 xalla gümüş medal qazandırıb.

Turnirin sonuncu günündə isə ayrı-ayrı alətlər üzrə final mərhələləri keçirilib. Komandamız ikinci gümüş medalı 5 topla çıxışında əldə edib (26.100). Gimnastlarımız gürzlər və halqa ilə icra etdikləri kompozisiyaya görə, hakimlərdən 24,650 xal alıb və turnirin bürünc medalını qazanıblar.

Fərdi proqramda çıxış edən gimnastlarımızdan isə ən yaxşı nəticə Zöhrə Ağamirovaya aid olub. Belə ki, gimnastımız topla final çıxışına görə 19.800 xalla 7-ci yerdə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

---

Kapitan-leytenant Eyvazov Fərrux Vahid oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Leytenant Əsgərov Ülfət Behbud oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazımlı Şahin Allahverən oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 548
Nüsxə 3950